**Elməddin BEHBUD**
**Bakı Dövlət Universitetinin dissertantı**

# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ XÜSUSİ CİLDİNİN QURULUŞ TƏHLİLİ

***Açar sözlər:*** *Azərbaycan, Respublika, cild, səhifə, xüsusi buraxılış, ensiklopediya*
***Ключевыеслова:*** *Азербайджан, Республика, том, страница, специальное издание, энциклопедия*
***Key words:*** *Azerbaijan, Republic, tome, page, special edition, encyclopedia*

Hər hansı bir xalqın elmi və mədəni səviyyəsini şərtləndirən amillərdən biri onun kitab mədəniyyətidir. Kitab mədəniyyətinin ən yüksək səviyyəsinin göstəricisi isə ensiklopedik nəşrlərdir. Elmin texnikanın inkişafı, müxtəlif yeni elm sahələrinin yaranması, alimlərin çoxalması, dövri mətbuatın adamları daha çox məşğul etməsi təbii olaraq soraq və ensiklopediya kitablarına ehtiyac yaradır.

Yaşadığımız XXI əsr elm və texnika, informasiya sahəsində elə böyük addımlar atmışdır ki, insanların daha boş vaxtından söhbət açmaq belə artıqdır. Əslində indi insanların məşğulluqları və qayğıları çoxaldığından asudəliyi və rahatlığı əllərindən çıxmışdır. İnformasiya sıxlığı və məşğuliyyət çoxluğu insanlarda hər cür soraq kitablarına ehtiyac artırmışdır. İngilis alimi Con Bernal bu problem haqqında belə demişdir: "İndi bir faktı üzə çıxarmaq və yeni bir nəzəriyyə yaratmaq belə bir faktın və nəzəriyyənin olub-olmadığını öyrənməkdən asandır". Bu doğurdan da, belədir. İnformasiyanın, məlumatların çoxalması axtarış sistemlərinin daha asan aparılması üçün zəmin yaradır.

İndi ixtisasından və peşəsindən asılı olmayaraq, adamları çox şey maraqlandırır. Maraq dairəsinin genişlənməsi universal xarakterli soraq kitablarına, lüğət və ensiklopediyalara tələbatı artırır.

Soraq-məlumat – ensiklopediya elə bir ədəbiyyatdır ki, oradan hər hansı bir oxucunu maraqlandıran nəzəri və təcrübi bilikləri qısa da olsa, çox az vaxt içərisində məlumatlandıra bilir. Mövzular ətrafında mətnlərin sistemli şəkildə düzümü və təqdimi istənilən informasiyanın qısa müddətdə əldə olunmasına imkan verir.

Bu gün dünyada ən çox soraq-məlumat ədəbiyyatının nəşri həyata keçirilir və buna baxmayaraq, soraq-məlumat ədəbiyyatına tələbat getdikcə çoxalır. Buna təbii bir proses kimi baxmaq gərəkdir. Çünki ensiklopediyalar yalnız soraq-məlumat yığını deyil, həyatda fəaliyyət göstərməyə imkan verən, fərdi və ya kütləni irəliyə aparan, cəlb edən, öyrədən, öyrənməyə təhrik edən vasitələrdir. Onlar insanın zövqünə və zehni tələblərinə cavab verir, dünyagörüşünü zənginləşdirir, təsəvvür və bilik dairəsinin genişlənməsinə xidmət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» sərəncamının icrası istiqamətində işlər davam etdirilir. 2008-ci il yanvarın 23-də təqdimatı olan Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlı xüsusi cildinin 50 min nüsxəsindən 25 mini dövlət qurumlarına paylanmış və yerdə qalan 25 min nüsxə isə satışa çıxarılmışdır.

Azərbaycan Milli Ensiklopediyasını 25 cilddə nəşr etmək nəzərdə tutulub. Ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti və elminə dair məlumatların öz əksini tapacağı yeni ensiklopediyaya bəzi dünya dövlətləri və tarixi hadisələrlə bağlı bilgilər də daxil edilməkdədir. Milli ensiklopediya 100 mindən artıq termini əhatə edəcək.

2007-ci ildə çap edilən "Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi buraxılışı olan "Azərbaycan" cildinin hazırlanmasında Azərbaycan Respublikasının nazirlikləri, komitələri və

digər dövlət qrumlarının təqdim etdiyi materiallardan istifadə olunmuşdur. Cildin baş redaktoru M.K.Kərimov, məsul katib isə T.M.Nağıyevdir.

Cidlin forzasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi verilmişdir. Şəkilin sonunda isə Cənab İlham Əliyevin "Hörmətli oxucu" adlı fikirləri verilmişdir. Burada deyilir:

"Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildi bütövlükdə Azərbaycan Respublikasına həsr olunmuşdur. Ölkəmizin dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və gesiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində nailiyyətləri kitabda öz ifadəsini tapmışdır.

Azərbaycan dövlət müstəqlilliyini bərpa etməsi ilə tariximizin başlanan müasir dövrü yeni milli ensiklopediyanın nəşri zərurətini meydana çıxarmışdır. Respublikanın zəngin elmi potensialının yaxından iştirakı ilə hazırlanan xüsusi cild müstəqil dövlətçiliyimizin qazandığı uğuirları obyektiv şəkildə əks etdirir.

Ümidvaram ki, belə mötəbər və sanballı nəşr hər bir azərbaycanlı üçün çox dəyərli töhfə olcaqdır. Bütün Azərbaycan vətəndaşlarını bu nəşrin işıq üzü görməsi münasibətilə təbrik edirəm".

Kitabın ilk səhifəsi titul səhifəsidir ki, burada nəşr məlumatları öz əksini tapmışdır.

Cildin redaksiya heyətinin sədri İlham Heydər oğlu Əliyevdir.

Sonrakı səhifədə isə Redaksiya heyəti haqqında və müavinlər, müəlliflər, məsləhətçilər haqqında məlumatlar verilir.

Cildin növbəti səhifəsində Azərbaycan Respublikasının Dövlət Himni yer alır. Təbii ki burada Azərbaycan Respublikasının bayrağı və gerbi də təsvir edilmişdir.

"Azərbaycan" adlı cildə "Ümumi məlumat", "Təbiət", "Təbii ehtiyatlar", "Ekologiya", "Əhali", "Xalq", "Dil", "Din", "Tarix", "Azərbaycan Respublikasının Konstitutsiya əsasları", "Milli təhlükəsizlik", "Xarici siyasət", "Diaspor", "İqtisadiyyat", "Elm", "Texnika", "Təhsil", "Mədəniyyət", "İncəsənət", "Səhiyyə", "İdman", "Turizm", "Azərbaycan Respublikasının inzibati-ərazi vahidləri" və "Əlavələr" daxil edilmişdir.

Nəşr bütövlükdə Azərbaycan Respublikasına həsr olunmuşdur. Ölkəmizin dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və geosiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində nailiyyətləri kitabda öz ifadəsini tapmışdır. Kitab müstəqil dövlətçiliyimizin qazandığı uğurları obyektiv şəkildə əks etdirir. Cildin hazırlanmasında Azərbaycan Respublikasının nazirlikləri, komitələri və digər dövlət qurumlarının təqdim etdiyi materiallardan istifadə edilmişdir. 14 bölmədən (Ümumi məlumat; Təbiət. Təbii ehtiyatlar. Ekologiya; Əhali. Xalq. Dil. Din; Tarix; Azərbaycan dövlətinin konstitusiya əsasları; Milli təhlükəsizlik; Xarici siyasət; Diaspor; İqtisadiyyat; Elm. Təhsil; Mədəniyyət. İncəsənət; Səhiyyə. İdman. Turizm; Azərbaycan Respublikasının subyektləri; Əlavələr) ibarət kitabda 155 məqalə, 55 xəritə, 69 xəritə-sxem, 588 illüstrasiya, 17 sxem və 97 cədvəl verilmişdir. Gətirilən rəqəmlər, faktlar və cədvəllər son illərin statistik məlumatları əsasında verilmişdir.

Cildin həcmi 884 səhifə, tirajı isə 50000 nüsxədir. Cildin çapa 22.08.2007 tarixində imzalanmışdır.

"Azərbaycan" adlı xüsusi buraxılışın formatı 60x90 1/8-dır.

Cildin "Ümumi məlumat" adlı hissəsində Azərbaycan Respublikasının coğrafi mövqeyi, dövlət idarəçiliyi, Azərbaycanda ilk respublikanın yaradılması, konstitutsiyası, dövlət bayrağı və gerbi, Azərbaycan Respublikasının BMT (1992), Avropa Şurasının (2001), MDB-nin (1991) və ATƏT-in (1992) üzvü olması, dili, Milli Məclis, sərəncamverici orqan olan Nazirlər Kabineti, Respublika Konstitutsiya məhkəməsi, bələdiyyələr, Azərbaycan Respublikasının bölünməzliyi, qanunları, kənd təsərrüfatı, sənaye sahələri, nəqliyyat sahələri, respublikanın tərkibi, ərazisi, əhalisi, paytaxtı, milli pul vahidi haqqında məlumat verilir.

"Ümumi məlumat" hissəsinin sonunda "Azərbaycan Respublikasının inzibati-ərazi vahidləri" və "Şəhər ərazi vahidləri" adlı cədvəl

vasitəsilə məlumatlar verilir. Cədvəllərdən sonrakı səhifədə isə Azərbaycan Respublikasının siyasi-inzibati xəritəsi (miqyas 1:2 250 000) təsvir olunur.

Təbiət: Təbii ehtiyatlar, ekologiya bölməsində "Bazardüzü", "Relyef", "Oroqrafiya", "Qızyurdu", "İlandağ", "Yüksəklik qurşaqları", "Padar darvazaları", "Relyefin formalaşma xüsusiyyətləri", "Göygöl", "Relyefin əsas tipləri", "Geomorfoloji bölgü", "Azıx mağarası", "Samur-Dəvəçi geomorfoloji vilayəti", "Şərqi Böyük Qafqaz geomorfoloji vilayəti", "Göyəzən", "Kənar Kiçik Qafqaz geomorfoloji vilayəti", "Keçəldağ", "Daxili Kiçik Qafqaz geomorfoloji vilayəti", "Talış geomorfoloji vilayəti", "Landşaftlar", "Dağlıq landşaftları", "Düzənlik landşaftları", "İqlim", "İqlim əmələgətirici amillər", "İqlimin əsas ünsürləri", "İqlim tipləri", "Torpaq örtüyü", "Bitki örtüyü", "Dəmirağac", "Eldar şamı", "Heyvanlar aləmi", "Xəzər dənizi", "Fiziki coğrafi səviyyəsi", "Hidroloji rejimi", "Təbii ehtiyatları", "Bioloji ehtiyatları", "Xəzər dənizinin problemləri", "Səth suları", "Çaylar", "Göllər və su anbarları", "Buzlaqlar və çoxillik qarlar", "Bataqlıqlar", "Kanallar", "Fiziki coğrafi rayonlar", "Böyük Qafqazın c.-ş. hissəsi vilayəti", "Ağsu aşırımı", "Kiçik Qafqaz", "Kür dağarası çökəkliyi vilayəti", "Lənkəran vilayəti", "Orta Araz viləyəti", "Qapıcıq", "Geoloji quruluş", "Stratiqrafik bölgülər", "Tektonik quruluş", "Dəlidağ", "Maqmatik süxurlar", "Seysmiklik", "Çigil adası", "Palçıq vulkanları", "Faydalı qazıntılar", "Yanar faydalı qazıntılar", "Qeyri-ənənəvi faydalı qazıntılar", "Yeraltı sular" bölmələr üzrə mətndaxili başlıqlar vasitəsilə mətnlər verilmişdir.

"Təbii ehtiyatlar" bölməsi "Mineral ehtiyatlar" başlıqlı yazı verilmişdir. Bu bölmə bu cür başlayır: "Öz nefti ilə dünyada məşhur olan Azərbaycan Respublikası həm də müxtəlif metal (dəmir, alüminium, mis, sink, qurğuşun, qızıl və s.), qeyri-metal (mədən-kimyəvi, aqrokimyəvi xammallar və s.) və tikinti materialları kimi faydalı qazıntı yataqları ilə çox zəngindir. Ehtiyatları təsdiq olunmaqla öyrənilmiş və kəşfiyyat işləri aparılmış belə yataqların sayı bir neçə yüzdür".

Ensiklopediyaya Azərbaycanın fiziki xəritəsi, Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının siyasi-inzibati, Azərbaycan Respublikasının geomorfoloji, landşaft, iqlim, torpaq, zoocoğrafi, bitki örtüyü, xəzər, fiziki-coğrafi rayonlaşdırma, tektonik sxem, geoloji, faydalı qazıntılar, metal və qeyri metal faydalı qazıntılar, xüsusi mühafizə olunan təbiət əraziləri, arxeoloji, Ön Asiya ərazisində qədim tayfalar, tayfa birlikləri və dövlətlər, Manna dövlət, Mada (Midiya) şahlığı, ərazi tayfaları, Atropatena və Albaniya, Albaniya (antik dövr), Albaniya və qonşu ölkələr, Adurbadaqan, Azərbaycan ərəb xilafətinin tərkibində, Xürrəmilər hərəkatı, Azərbaycan X əsrin II yarısı, XI əsrin birinci yarısı, Böyük Səlcuq İmperiyası, Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti, Azərbaycan XIII – XIV əsrlərdə, Qarabağ, Azərbaycan, Ağqoyunlu dövləti, Səfəvilər dövləti, Azərbaycan XVI əsrdə, Azərbaycan XII əsrdə, Azərbaycan xanlıqları, Şimali Azərbaycan (1801 -13 illərin işğal kampaniyası), Şimali Azərbaycan (1826-28-ci illərin işğal kampaniyası), Şimali Azərbaycan (inzibati ərazi bölgüsü - 1840), Şimali Azərbaycan (inzibati ərazi bölgüsü - 1917), Şimali Azərbaycan (inzibati ərazi bölgüsü - 1903), Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı ermənilərin törətdikləri qırğınlar (1905-1906), Bakının azad olunması əməliyyatı (1918), Azərbaycan Xalq Cümhuriyyəti və s. xəritə və sxemlər daxil edilmişdir.

Ensiklopedyada Azərbaycan mətbəxinə də xüsusi yer ayrılmışdır. "Azərbaycan mətbəxi" başlıqlı yazı belə başlayır: "Dünyanın ən qədim və zəngin mətbəxlərindən biri olan Azərbaycan mətbəxi maddi mədəniyyətin mühüm tərkib hissəsi kimi mətbəx mədəniyyəti tarixini, onun fəlsəfəsi, süfrə pisixologiyası, adət-ənənələri, mətbəxin fiziologiyası, gigiyenası, avadanlığı, etikası, estetikası və s. cəhətləri, eləcə də təcrübi amilləri var". Burada Azərbaycan mətbəxini əhatə edən ərazilər, bölgələr üzrə hazırlanan yeməklər və s. haqqında dolğun məlumat verilir.

Ensiklopediyada Hacı Zeynalabidin Tağı-

yev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Hüseyn xan Naxçıvanski, Səttarxan, Şeh Məhəmməd Xiyabani və s. görkəmli simalar haqqında məlumatlar yer almışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli simaları adlanan bölmə xüsusilə diqqəti cəlb edir. AXC dövründə nəhəng şəxsiyyətlərin portret şəkilləri təqdim olunur və dövrü əhatə edən yazı verilir.

"Azərbaycan II Dünya müharibəsi illərində" başlıqlı yazıda arxa cəbhə, ön cəbhə, Azərbaycanın müharibədə həlak olmuş qəhrəmanları və s. məlumatlar geniş verilmişdur. Hətta burada qəhrəmanların portret şəkilləri səliqə ilə düzlərək verilmişdir.

"Azərbaycan" adlanan xüsusi buraxılışın sonunda ensiklopediya aparatına "Əlavələr" adlı bölmədə də daxil edilmişdir. Burada "Azərbaycanda hökmdar sülaləri" adlı cədvəldə 18 sülalə adı, banisi, hansı dövlətdə (ərazidə) və hakimiyyətdə olmuşdur, hakimiyyət illəri və görkəmli nümayəndələri haqqında məlumat verilir.

Ensiklopediyanın sonunda Azərbaycan dövlət xadimləri (1918-2005-ci illər) başlıqlı məlumatlar öz əksini tapıb. Burada 1918-ci ildən 2005-ci ilə qədər Azərbaycanın dövlət xadimləri ardıcıllıqla tərtib edilmişdir.

Məsələn, "Azərbaycan Xalq Cümhuriyyəti. Azərbaycan Xalq Cümhuriyyətinin Birinci Hökumət Kabineti (28 may 1918 – 17 iyun 1918)"; "Azərbaycan Xalq Cümhuriyyətinin İkinci Hökumət Kabineti (17 iyun 1918 – 7 dekabr 1918)"; "Azərbaycan Xalq Cümhuriyyətinin Üçüncü Hökumət Kabineti (26 dekabr 1918 – 14 aprel 1919)"; "Azərbaycan Xalq Cümhuriyyətinin Dördüncü Hökumət Kabineti (14 aprel 1919 – 22 dekabr 1919)"; "Azərbaycan Xalq Cümhuriyyətinin Beşinci Hökumət Kabineti (22 dekabr 1919 – 30 mart 1920)" haqqında məlumatlar öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyat və fəaliyyəti haqqında da dəqiq məlumatlar əldə etmək olar.

Ümumiyyətlə, ensiklopediyanın hazırlanmasında Azərbaycanın görkəmli alimlərinin böyük rolu olmuşdur və buna görə də ilk səhifədə onların adı oxuculara təqdim olunmuşdur.

Kitab nəşri mədəniyyətimizin zəngin tarixinin öyrənilməsi, aktual mövzularının, o cümlədən soraq-məlumat ədəbiyyatının tətbiq edilməsi Azərbaycan kitabşünaslığının ən vacib elmi problemlərindən biridir. Azərbaycan Respublikasnın ümummilli lider Heydər Əliyevin fikri bu mənadə böyük əhəmiyyət kəsb edir: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik".

Biz xüsusilə, fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasnın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, kitabçılıq işi sahəsində də böyük işlər görmüşdür. Buna misal olaraq Azərbaycan Milli Ensiklopediyasının yenidən nəşr olunması üçün verdiyi sərəncam böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlanan xüsusi cildi bütövlükdə Vətənimizə həsr olunmuş ensiklopediyadır. Burada Azərbaycanla bağlı bütün məlumatlar dəqiq faktlar əsasında oxuculara təqdim olunmuşdur.

Azərbaycan Respublikasının əldə etdiyi müstəqillik nəticəsində Azərbaycan Milli Ensiklopediyanın "Azərbaycan" adlı xüsusi buraxılışının nəşrinin həyata keçirilməsi kitab mədəniyyəti tariximizdə əlamətdar hadisə kimi qiymətləndirilməlidir.

Ensiklopediyanı vərəqlədikcə, görürük ki, ensikloediya müxtəlif şəkillər, xəritələr, sxemlərlə zəngindir.

Ensiklopediyaya Azərbaycan mədəniyyətini əks etdirən qədim xalçalarımız, milli geyimləri-

miz, milli mətbəximiz, tariximiz və s. haqqında da məlumatlar daxil edilmişdir.

Bütövlükdə, Azərbaycan Milli Ensiklopediyasının ilk dəfə nəşr olunan, "Azərbaycan" adlanan xüsusi cildinin nəşrini yüksək qiymətləndirməliyik.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. /Baş redaktor.M.K.Kərimov. Bakı, 2007, 884 s.
2. Vəliyev İ.Ö. Redaktənin əsasları: nəzəriyyə və təcrübə. Dərslik. Bakı: Günəş, 2009, 404 s.
3. Quliyeva S.F. Soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri. Bakı: Təhsil, 2006, 176 s.
4. Musalı V.A. Mətnlərin nəşrə hazırlanması problemləri. Bakı: "Elm və təhsil", 2012, 262 s.
5. Vəliyev İ.Ö. Redaksiya-nəşriyyat işinin əsasları. Bakı: Günəş, 2004, 140 s.
6. Ələsgərova İ. Nəşrin bədii və texniki tərtibatı. Bakı: Azərbaycan nəşriyyatı, 2010, 184 s.


**Эльмеддин Бехбуд**

**СТРУКТУРНЫЙ АНАЛИЗ СПЕЦИАЛЬНОГО ТОМА НАЦИОНАЛЬНОЙ ЭНЦИКЛОПЕДИИ АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

В статье далее отмечается, что продолжается работа над исполнением распоряжения президента Азербайджанской Республики Ильхама Алиева «Об издании Национальной энциклопедии Азербайджана», подписанное 12 января 2004 года.

В целом в статье рассматривается структурный анализ специального тома под названием «Азербайджан». 25 тысяч экземпляров из 50 тысячи специального тома упомянутого выше который был представлен 23 января 2008 года, были распространены среди государственных учреждений и остальные 25 тысяч экземпляров были выставлены на продажу.

В целом в статье дается нформация об использовании материалов, при публикации тома упомянутого выше, предоставленных министерствами, комитетами и другими государственными органами Азербайджанской Республики. Главным редактором тома является М.К.Каримов, а ответственным секретарем является Т.М.Нагиев.

**Elmeddin Behbud**

**STRUCTURAL ANALYSIS OF THE SPECIAL TOME OF THE NATIONAL ENCYCLOPEDIA OF AZERBAIJAN**

**SUMMARY**

The given article notes that work on the execution of the order of the President of the Republic of Azerbaijan Ilham Aliyev «On the publication of the National Encyclopedia of Azerbaijan», signed on January 12, 2004 is carrying forward.

In general, the article deals with the structural analysis of a special tome called "Azerbaijan". 25 thousand copies from 50 thousand copies of special tome mentioned above which was introduced on January 23, 2008, were distributed to government agencies and the remaining 25 thousand copies were put up for sale. The article provides information on the use of materials, on the publication of the tome mentioned above, provided by the ministries, committees and other state agencies of the Azerbaijan Republic. The editor-in-chief of the volume is M.K. Karimov, and the executive secretary is T.M.Nagiyev.

Rəyçilər: prof.B.V.Allahverdiyev; dos.N.M.Mehrəliyeva